**UOT (316.61)** **Səh. (130-143)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.130**

# ŞƏRQ-QƏRB MƏDƏNİYYƏTLƏRİNİN MÜQAYİSƏLİ TƏHLİLİNDƏ ŞƏXSİYYƏT AMİLİ

**Azər Mustafayev**
Fəlsəfə elmləri doktoru, professor
e-mail: mustafayev.azer54@gmail.com
https://orcid.org/ 0009-0009-5100-6916

**Məmməd Rzayev**
Fəlsəfə elmləri doktoru, professor
e-mail: mamedrazi@mail.ru
https://orcid.org/0009-0007-5495-0893

## Xülasə

Əsrlərdən bəri davam edən Qərb-Şərq sivilizasiyalarının münasibətləri məsələsi müasir dövrdə daha tez-tez müzakirə olunur. Sözügedən iki regionun gələcəyi, onların nailiyyətləri və üstünlüklərini üzvi əlaqələndirmək yolu ilə vahid dünya birliyinin yaradılıb-yaradılmayacağına dair mübahisələr səngimək bilmir. Təbii ki, bu halda söhbət həm də şəxsiyyətin Qərbin və Şərqin əldə etmiş olduğu mədəni və mənəvi nailiyyətlərə münasibətini də gündəmə çıxarır. Bütövlükdə götürdükdə məsələnin mahiyyəti Şərq və Qərb sivilizasiyalarının malik olduğu tarixi ənənələrin və mədəniyyətlərin ümumi və özünəməxsus cəhətlərini dəqiq müəyyənləşdirmək və müasir şəxsiyyətin onları özündə inteqrasiyasının mümkünlüyünü, formalarını və yollarını araşdırmaqdadır.

Qərb və Şərq bəşər mədəniyyətinin iki üzü, iki sivilizasiya, iki həyat tərzi və iki növ fəlsəfi anlayışdır. Bu mədəniyyətlər həm mədəni həyat, həm də maddi dəyərlər baxımından bir çox cəhətdən bir-birindən uzaqdır. Tədqiqat iki mədəni sivilizasiyanın əsas ideoloji və dəyər oriyentasiyalarının müəyyənləşdirilməsinə, bu mədəniyyətlərin tərəqqi və inkişafında şəxsiyyət amilinin rolu və habelə bu mədəniyyətlər arasında mövcud olan fərqlərin təhlilinə həsr edilmişdir. Məqalədə bu sahədə görkəmli alim və tədqiqatçıların elmi əsərlərindən istifadə etməklə Şərq-Qərb kontekstində mədəni və ictimai-siyasi mühitində şəxsiyyətin aparıcı rolu, bu zaman hər iki mədəniyyətin qarşılıqlı təsir xüsusiyyətləri aydınlaşdırılmışdır.

**Açar sözlər:** mədəni dəyərlər, Şərq, Qərb, şəxsiyyət, mədəniyyətlərin qarşılıqlı əlaqəsi, mədəniyyətlərdə konflikt, mədəniyyətlərin dialoqu.

# PERSONALITY FACTOR IN COMPARATIVE ANALYSIS OF CULTURES OF THE EAST AND WEST

**Azer Mustafaev,**
Prof, DSc
e-mail: mustafayev.azer54@gmail.com
https://orcid.org/0009-0009-5100-6916

**Mamed Rzaev.**
prof, DSc
e-mail: mamedrazi@mail.ru
https://orcid.org/0009-0007-5495-0893

## Summary

The issue of relations between Western and Eastern civilizations, which has been going on for centuries is being discussed more often in modern times. The debates about the future of the two regions in question, whether a single world community can be created by organically linking their achievements and advantages do not subside. Naturally, in this case, the conversation also raises the issue of the attitude of the individual to the cultural and spiritual achievements of the West and East. Taken as a whole, the essence of the issue is to clearly identify the common and specific features of the historical traditions and cultures of the Eastern and Western civilizations and to investigate the possibility, forms and ways of integrating them into the modern personality.
The West and the East are two faces of human culture, two civilizations, two lifestyles and two types of philosophical understanding. These cultures are far from each other in many ways, both in terms of cultural life and material values. The study is devoted to the identification of the main ideological and value orientations of the two cultural civilizations, the role of the personality factor in the progress and development of these cultures, as well as the analysis of the differences between these cultures. The article, using the scientific works of prominent scientists and researchers in this field, clarifies the leading role of personality in the cultural and socio-political environment in the East and West context, and the characteristics of the interaction of both cultures.
**Key words:** cultural values, East, West, personality, interaction of cultures, conflict of cultures, dialogue of cultures

# ЛИЧНОСТНЫЙ ФАКТОР В СРАВНИТЕЛЬНОМ АНАЛИЗЕ КУЛЬТУР ВОСТОКА И ЗАПАДА

**Азер Мустафаев,**
доктор философских наук, профессор
e-mail: mustafayev.azer54@gmail.com
https://orcid.org/0009-0009-5100-6916

**Мамед Рзаев.**
доктор философских наук, профессор
e-mail: mamedrazi@mail.ru
https://orcid.org/0009-0007-5495-0893

**Аннотация**

Проблема взаимоотношений западной и восточной цивилизаций, которая существует уже много веков, часто обсуждается и в современный период. Не утихают споры о будущем, о том, можно ли создать единое мировое сообщество, органично связав их достижения и преимущества, об отношение человека к духовной культуре.

Запад и Восток — это две ветви человеческой культуры, две цивилизации, два образа жизни и два типа философского понимания. Эти культуры во многом далеки друг от друга как с точки зрения культурной жизни, так и материальных ценностей. Исследование посвящено выявлению основных идейно-ценностных ориентаций двух культурных цивилизаций, а также анализу различий между этими культурами. В статье на основе научных трудов видных ученых и исследователей, проясняется ведущая роль личности в культурной и социально-политической среде в контексте Восток-Запад, а также особенности взаимодействия обеих культур.

**Ключевые слова:** культурные ценности, Восток, Запад, личность, взаимодействие культур, конфликт культур, диалог культур

## GİRİŞ

Cəmiyyətin ümummədəni mühitinin transformasiyası prosesində şəxsiyyətin başqa subyektlərə münasibəti böyük əhəmiyyət kəsb edir. Belə ki, cəmiyyətin ümumi vəziyyətini və inkişafı perspektivini əks etdirən yeni mədəniyyət nümunələri məhz subyektlərarası qarşılıqlı təsir sferasında yaranır. Sözügedən qarşılıqlı təsir isə əsas etibarilə iki formada (dialoq və monoloq) həyata keçirilir. Eyni zamanda bu prosesdə şəxsiyyətin sosial səmtə yönəldilmiş mədəni fəaliyyəti baş verir. Başqa sözlə, müasir şəxsiyyət tipini mədəniyyət mövqeyindən araşdırarkən aşağıdakı məqam mütləq nəzərə alınmalıdır. Burada söhbət şəxsiyyət probleminə dinamik vəziyyətdə yanaşmağın, onu real proseslərlə bağlı şəkildə təhlil etməyin zəruriliyindən gedir. Şəxsiyyətlə bağlı problemin maraq doğuran və düşündürən cəhəti onunla izah olunur ki, burada yəni ictimai həyatın bütün sferalarında və sahələrində baş verən əsaslı,prinsipial dəyişikliklər öz əksini yaşanan dövrün şəxsiyyət amilində və onun mədəniyyətində tapır. Bu isə öz növbəsində onların qarşılıqlı əlaqələrinin dinamik xarakterdən xəbər verir. Problemin dərin təhlili bizə həm də onu deməyə əsas verir ki, zəngin məzmuna malik şəxsiyyət anlayışı əsasən aşağıdakı üç istiqamətdə özünü göstərir: 1) insanın şəxsiyyəti və mədəniyyəti arasında baş verən kortəbii və stixiyalı, təbii qarşılıqlı təsir, 2) onlar arasında ictimai şüuru formalaşdıran (elm, incəsənət, əxlaq, fəlsəfə) kütləvi şüur və ictimai

psixologiyaya təsir edən mədəniyyət simvollarının sabit sistemində yaranan spesifik qarşılıqlı təsiri var, 3) insan şüuru, onun aktiv psixikası, yaradıcı təbiəti ilə şərtlənən dəyişdirici mənəvi və maddi fəaliyyətdə ifadə olunan qarşılıqlı təsir [12, s.227].

Deməli, müasir şəxsiyyət özünün bütün rəngarəng mədəni keyfiyyətlərə malik olmasına baxmayaraq, o əsasən iki mədəniyyət mərkəzinin - Şərq və Qərb sivilizasiyalarının orbitində fəaliyyət göstərir.

**1.Müasir qloballaşma prosesində mədəniyyətlərarası dialoq və şəxsiyyət amili**

Şərq və Qərb mədəniyyətlərinə xas olan dəyərlər bütün tarix boyu mübarizədə müxtəlif çətinliklər və ziddiyyətlərlə üzləşsələr də, eyni zamanda bir-birilə əksər halllarda zənginləşmə və qarşılıqlı təsir zəminində inkişaf etmişlər. Əsrlərdən bəri davam edən Şərq-Qərb sivilizasiyalarının şəxsiyyət fonunda olan münasibətləri müasir dövr nəzəri ədəbiyyatda mübahisələr doğurduğundan elmi dairələrdə daha tez-tez müzakirə olunur. Sözügedən hər iki sivilizasiyanın, mədəniyyətlərin gələcəyi, onların əldə etdikləri uğurları və nailiyyətləri üzvi surətdə əlaqələndirmək yolu ilə vahid dünya birliyinin yaradılıb-yaradılmayacağına dair mübahisələr zəminində səngimək bilmir. Təbii ki, bu halda söhbət həm də şəxsiyyətin Şərqin və Qərbin əldə etmiş olduğu mədəni və mənəvi nailiyyətlərə münasibətini də gündəmə çıxarılmasından gedir. Bütövlükdə götürdükdə məsələnin mahiyyəti Şərq və Qərb sivilizasiyalarının malik olduğu tarixi ənənələrin və mədəniyyətlərin özünəməxsus və ümumi cəhətlərini dəqiq müəyyənləşdirmək və müasir şəxsiyyətin başqa sistemlərə inteqrasiyasının mümkünlüyünü, formalarını və yollarını araşdırmaqdan ibarətdir.

Əvvəla onu qeyd edək ki, şəxsiyyət probleminin Şərq və Qərb konteksində təhlili təkcə coğrafi məkanda deyil, həm də sosial fəlsəfi səpkidə götürülür. Başqa sözlə, «Şərq» sözünün fəlsəfi anlamı intuitivizmi, mənəviliyi, mistikanı, Şərq dinlərinin, xüsusən də islamın ənənələrini, fərd-kollektiv sistemində ikinci tərəfin prioriteti və s. əhatə edirsə, «Qərb» dedikdə, Avropa həyat tərzi, təfəkkür üslubu, rasionalizm, xristian dininin ənənələri, demokratiya və hüquqi dövlət sahəsində qazanılmış təcrübə, kollektivizm ilə yanaşı münasibətdə şəxsiyyətə üstünlük verilməsi, elmi-texniki inkişafın uğurları və sair məsələlər nəzərdə tutulur [1,3,4,13,15,18,23,24,25,28**]**.

XX əsrin görkəmli filosofu və əxlaqşünas alimi A.Şveytser (1875-1965) göstərirdi ki, hər bir fəlsəfəni maraqlandıran bir böyük problem vardır. Bu, insanın sonsuz varlıq ilə vəhdətinə necə nail olmaq problemidir. O, Şərq-Qərb fəlsəfi fikrində mövcud olan münasibətlərə məhz bu prizmadan yanaşaraq qeyd edirdi ki, onlar şəxsiyyət probleminə yan və bi bir-birinə qarşı əks qütbdə çıxış edir. Onlar arasında olan əsas fərqli yanaşma bundadır ki, Şərq bütövlükdə dünyanı və həyatı inkar etmək yolu ilə, Qərb isə yuxarıda göstərilən problemi əsasən dünyaya və insan həyatına inamı möhkəmləndirmək yolu ilə həll etməyə çalışır.

Müasir dünyamızda da ziddiyyətlərin getdikcə kəskinləşməsi səbəblərindən biri də insanı və dünyanı dərk edən yeni Avropa yönümlü paradiqmalar ilə sıx bağlıdır. Bu paradiqmaların mənəvi-praktik və sosial-praktik şəkildə həyata keçirilməsi nəticəsində bəşəriyyətin mədəni həyatında dərin, əhəmiyyətli dəyişikliklər və ciddi itkilər baş vermişdir. Bu mənada insanın mənəvi deqradasiyası təhlükəsinin kökündə Qərbin davam edən hegemonluğu, Qərb sivilizasiyasının geosiyasi, geopolitik genişlənməsi dayanır. Deməli, sivilizasiya probleminin mövcudluğu probleminin olduğu bir şəraitdə bəşəriyyətin mədəni müxtəlifliyinin qorunub saxlanılması və hifz edilməsi ən aktual ideya-metodoloji və mənəvi-praktik vəzifələrdən biri kimi qarşıya qoyulur.

Sivilizasiyalara yanaşma çərçivəsində (N. Y. Danilevski, K. N. Leontev, O. Şpenqler, A. Toynbi, P. A. Sorokin) tarixi hərəkat xətti konsepsiyasını inkar etməklə yanaşı, bütövlükdə başa düşülən hər hansı bir fərdi mədəniyyətin "müxtəlif", lakin "müvəqqəti" bir qrup hal olduğunu iddia edilməsini, həmçinin zaman və məkan çərçivəsini etmək lazımdır al və məkan çərçivəsi, bununla da avrosentrizmin legitimlik ideyasını şübhə altına alır. Burada problem ona səbəb olan ziddiyyətlərin aradan qaldırılmasına qədər onların mövcud olmasıdır. Şərq

və Qərb dəyərlərinin ziddiyyətli xarakteri nə avropalaşma prosesləri, nə humanist universalizmin sivilizasiya nailiyyətləri, nə də dönməz xarakterli universal inteqrasiya prosesləri, nə də xüsusi qlobalist dünyagörüşünün formalaşması ilə silinməmişdir. Problem hələ də qalmaqdadır, üstəlik, bütövlükdə bəşər sivilizasiyasının taleyi ilə bağlı qoyulmuş sualın hələ də formalaşdırılmasının miqyası və dərinliyi səbəbindən daha da kəskinləşməsidir. Bizə elə gəlir ki, Şərq və Qərb münasibətlərini və onların mövcudluğunun ideoloji dominantlarını tədqiq etməklə bugünkü dərin və kəskin problemin cavab tapmaq üçün mədəniyyətin müasir durumunda artan esxatoloji gərginliyin mənşəyi səbəbi nədir sualına düzgün cavab tapmaqdan ibarətdir. Bu isə heç şübhəsiz ki, dünyada daxilən mövcud olan ziddiyyətli sosial-mədəni vəziyyətin bir daha Şərq-Qərb problemi kontekstində düzgün başa düşülməsini tələb edir [21, c.87 ].

Şərqi Qərbə qarşı qoymaq problemi bu gün yaranan məsələ olmadığından qədim tarixə malikdir. Belə ki, hələ antik fəlsəfənin bəzi nümayəndələri də (məsələn, İsokrat) bu mövqedən çıxış edirdilər. Erkən orta əsrlər dövründən etibarən isə Qərbin leksikonunda Şərq anlayışı məzmunca daha geniş götürülməyə başladı. Buraya ənənəvi götürülən Hindistan, Çin və İran ilə yanaşı yenicə yaranmış müsəlman ölkələri də əlavə olundu. Bu təsadüfi olmayıb, bir sıra səbəblərlə bağlı idi. Əvvəla, həmin dövrdən başlayaraq bir-birinin ardınca baş verən müsəlman ölkelerini təmsil edən fatehlərin güclü və geniş miqyaslı hərbi yürüşləri (xüsusən də VII-IX əsrlərdə xilafətin, sonralar isə Osmanlı imperatorluğunun) Avropanı lərzəyə salmışdı və onları Şərq amilinə hərbi-siyasi planda daha ciddi mənada yanaşmağa vadar etmişdi. Digər səbəb, fikrimizcə, dini məna kəsb edir. Söhbət ondan gedir ki, yeni təkallahlılıq dininin, islamın yaranması və qısa müddət ərzində böyük sürətlə yayılması xristian dünyasını dərindən narahat edirdi. Halbuki əvvəllər Qərb ölkələri Şərqə saymazyana yanaşırdılar. Onlar özlərini sivilizasiya və mədəniyyətin yaradıcısı, Şərqi isə barbarlıq səviyyəsində olan region kimi qələmə verirdilər. Nəticədə onlarda Şərqə münasibətdə nə isə yad bir şey, özgə mədəniyyət kimi yanaşılması fikri formalaşdı. Bunun müqabilində Şərqin əhval-ruhiyyəsi və təfəkkür tərzində də xristian dünyasının insanlarla yad mədəniyyət və incəsənət, pozğun xislət və davranış, mənəviyyatsızlıq aşıladığı haqqında təsəvvürlər qərarlaşdı. Sonralar bu qütbləşmə daha dərinləşdi. Şərq əhalisinin ictimai şüurunda Qərb dünyasının yalnız maddi yaşayış vasitələri ardınca qaçaraq mənəviyyatı unutduğu, şəxsi özgürlüyə məhəl qoymayaraq, plüralizmə aludə olduğu barədə ittihamlar gücləndi. Nəticədə müxtəlif növlü avropamərkəzlilik əhval-ruhiyyəsinə qarşı etiraz əlaməti olaraq Şərqin tarixi və mədəni uğurlarının təbliği meyllləri, daha dəqiq desək, özünəməxsus Şərq mərkəzçiliyi yarandı.

Şərq məfkurəsindən fərqli olaraq, avropasentrizminin nümayəndələri göstərirlər ki, yer kürəsindəki bütün xalqların mədəniyyəti ikinci dərəcəlidir, yalnız Avropa xalqlarının mədəniyyəti əsasdır. Bu meyli pasionarizm nəzəriyyəsinin banisi, məşhur tarixçi, şərqşünas və etnoloq L.N.Qumilyev (1912-1992) aşağıdakı kimi ifadə etmişdir: «Hər bir avropalının gizli arzusu Yer kürəsinin bütün xalqlarının özünəməxsus mədəni simasını məhv etmək, yalnız Avropa mədəniyyətini ümumbəşəri mədəniyyət kimi görmək, bütün qalan mədəniyyətləri isə aşağı növlü mədəniyyətə çevirməkdir» [14, s.54].

Məşhur amerikan politoloqu S.Xantington (1927-2008) özünün geniş əks-səda doğurmuş gələcəkdə sivilizasiyalann toqquşmasının labüd olduğu haqqındakı konsepsiyasında aşağıdakı ideyanı irəli sürür. Onun fikrincə, dünya əvvəllərdə də bir sıra münaqişə mərhələlərindən keçmişdir. Belə ki, əvvəlcə monarxlar arasında və nəhayət ideologiyalar arasında belə qarşıdurma mövcud olmuşdur. İndi isə növbə sivilizasiyalarındır, gələcəkdə Şərq və Qərb sivilizasiyaları mütləq toqquşacaqdır. Bu konsepsiyada əsas baza xarakterli amil kimi konfessional əlamətlər, yəni dini əlamətlər götürülür. Amerikan politoloqunun fikrincə, dünyada yeddi- səkkiz sivilizasiya mövcudur. Bunlar Qərb, Konfutsi, yapon, islam, induist, pravoslav-slavyan, Latın Amerikası və müəyyən şərti olaraq götürülən Afrika sivilizasiyalarıdır. Bu sivilizasiyaları bir-birindən ayıran başlıca

xətt bu xalqların bir-birilə əkslik təşkil edən mədəniyyətləridir. Həmin fərq gələcək toqquşmanın mənbələri rolunu oynayır. Toqquşmanın ən böyük mənbəyini isə Qərb sivilizasiyası və birləşmiş konfutsi - islam sivilizasiyası arasındakı fərq təşkil edir. Buna görə də həmin sivilizasiyalar yaxın gələcəkdə toqquşacaqdır. Bu qəbildən olan baxışları təhlil edərkən əvvəla, onların gerçəklikdən uzaq olduğu göstərilməlidir. Lakin burada son dövrlərdə bəzən özünü ifadə edən şərqdəki islam fundamentalizmi təzahürlərinə qarşı müəyyən cavab reaksiyası da ifadə olunduğu şübhə doğurmur.

Halbuki, Şərq dünyanın ən qədim yaşayış və mədəniyyət ocaqlarından biri kimi şöhrət qazanmışdı. O, ilkin mədəniyyət nümunələri, sosial və siyasi institutların beşiyi hesab olunur. Bu region əsrlər boyu mədəniyyətin inkişafı, həyat tərzinin sabitliyi, dini-mifoloji təsəvvürlərin prioriteti, insanların həyat üslubunun sərt şəkildə reqlamentləşdirilməsi ilə səciyyələnir. Şərq sivilizasiyası tarixən ənənəvi cəmiyyətin və ənənəvi inkişaf yolunun olması ilə seçilmişdir. Onun tarixini və mədəniyyətini öyrənən mütəxəssislər həmin keyfiyyətləri aparılan kənd təsərrüfatı işlərinin tsikliyi və ilk dövlət institutlarının yaranması ilə əlaqələndirirlər [7, s.26].

Deyilənlərlə yanaşı, Şərq ümumdünya tarixinə həm də öz despotizmi ilə daxil olmuşdur. Despotizm isə hakimiyyət forması və cəmiyyətin əsas strukturu kimi bir qayda olaraq xüsusi mülkiyyətin zəif inkişaf etdiyi ölkələrdə mövcud olur. Bütün yuxanda göstərilən keyfiyyətlər Şərqdə tarixən şəxsiyyətin zəif inkişaf etməsi, onun bir qayda olaraq kollektivin, qrupun içərisində əridilməsi ilə nəticələnmişdir. Şərq ənənəsində xüsusi mülkiyyət idealları zəif inkişaf etdiyindən, burada icmanın nüfuzu da xeyli dərəcədə güclü olmuşdur. Hətta Şərq mədəniyyəti tarixində böyük iz buraxmış islamiyyətdə də müsəlmanların icmaya üstünlük verdiyi və Quranın tələblərini sözsüz yerinə yetirməli olduğu göstərilirdi. Doğrudur, burada xüsusi mülkiyyətin rolu müəyyən qədər qəbul olunsa da, bu imkanları məhdudlaşdırırdı. Bu onunla izah edilir ki, islam dinində Allah mütləq ilahi qüvvə, hər şeyin müəyyənedicisi kimi göstərilirdi, belə bir fikir təlqin olunurdu ki, insanlar onun yaratdığı varlıq olduğu üçün, yalnız ilahinin qoyduğu qanun ilə hərəkət etməlidirlər.

O ki qaldı, Qərb sivilizasiyasının formalaşmasına öz əsaslarını qədim yunan fəlsəfəsi və mədəniyyətindən götürmüşdür. Sonralar müxtəlif obyektiv və subyektiv amillərin təsiri nəticəsində Qərbdə elmin və texnikanın, bütövlükdə mədəniyyətin inkişafı əvvəldən Şərqə nisbətən şəxsiyyətə, onun müstəqilliyinə daha geniş yer verməsi ilə səciyyələnir. Lakin şəxsiyyətin inkişafı baxımından Qərb mədəniyyətinin yaratdığı üstünlüklərin rolunu həddən artıq şişirtmək doğru olmazdı. Belə ki, burada hökm sürən texnoloji, iqtisadi və hüquqi rasionalizm şəxsiyyətə ziddiyyətli təsir göstərir. Bu, bir tərəfdən onun yaradıcılıq imkanlarını və sərbəstliyini kifayət qədər yüksəldirsə, digər tərəfdən onun mənəvi zənginlik səviyyəsinə mənfi təsir göstərir, burada mənəvi kasadlaşmanı şərtləndirir. Burada bazar qanunlarının fəaliyyəti, xüsusi sahibkarlığın sürətli inkişafı, sərt rəqabət şəraitində daha yüksək gəlir əldə etmək hərisliyi, insanlar arasında şəfqətin və rəhmdilliyin təsir dairəsini məhdudlaşdırır, insanın halına acımaq, hər bir şəxsiyyətin ləyaqətinə hörmət edilməsi prinsipinin pozulması ilə müşayiət olunur.

Qeyd edilən bu fərqlərə baxmayaraq, Şərq və Qərb daim bir-biri ilə qarşılıqlı əlaqədə olmuş, qarşılıqlı inkişafı təşviq etmiş və bir-birinin dəyərlərini dərindən öyrənmişdir [8,s.12]. Şərq ilə Qərbin mədəni əlaqələri çox qədim tarixə malikdir. Onu qədim Misir, Yəhudi və Avropa mədəniyyətlərinin qarşılıqlı münasibətlərində də yəqin etmək olar. Məsələn, dünyada ən çox oxunan kitab olan Bibliyadakı bir çox məsələlər və nəsihətlər qədim Misir, Babilistan və Şumer mədəniyyətlərindən əxz olunmuşdur. Yaxud da Moiseyin dünyagörüşündə, hərəkətlərində və bütövlükdə yəhudilərin monoteist dinində iudaizmin, digər Şərq ölkələrinin nümunələrinin özünəməxsus şəkildə sintez olunduğunu Z.Freyd (1856-1939) də təsdiq etmişdir [33, s.232].

Qədim Şərq fəlsəfəsi və bütövlükdə mədəniyyəti, Qərbi Avropa mədəniyyətinin sonrakı inkişafında da mühüm rol oynamışdır. Qədim Şərq fikrinin böyük mənəvi nailiyyətlə-

rindən olan zərdüştilik antik mədəniyyətə, iudaizmə, onun vasitəsilə isə xristianlığa əhəmiyyətli təsir göstərmişdir. Zərdüştün mənəvi triadasından (nəcib insan, xeyirxah fikir,xeyirxah söz və xeyirxah əməl) Demokrit öz etik baxışlarında, Anaksimandr isə kosmoloji təlimində istifadə etmişdir. Demokrit özü etiraf etmişdi ki, atomist təlimini o yaratmamış, midiyalılardan, xüsusən də qədim maqlardan əxz etmişdir [19, s.41].

Zərdüştün Xeyir və Şərin mübarizəsi haqqında fikirləri Hegelin etik təliminə böyük təsir göstərmişdir. Qərbin böyük mütəfəkkirlərindən olan F.Nitsşe (1844-1900) Şərq fəlsəfəsi və mədəniyyəti ilə tanışlıq əsasında «Zərdüşt belə söyləmişdir» adlı əsər yazmışdır. XVII-XVIII əsrlərdə Avropa mədəniyyətində yeni konfusiyaçılıq təlimi geniş yayılmışdı. Buddizm ideyalar isə nəinki keçmişdə, bü günün özündə də Avropa mədəniyyətində geniş yer tutmaqdadır. Şərq elmi də Qərbə güclü təsir göstərmişdir. Məsələn, XX əsrin ən böyük fiziklərindən olan V.Heyzenberq (1901-1976) qeyd edirdi ki, kvant fizikası ilə qədim Şərq elmi fikri arasında bir sıra paralellər vardır. O öz yaradıcılığında hind fəlsəfəsinin böyük təsir gösterdiyini etiraf etmişdir. V.Heyzenberqin fikrincə, fiziki reallığın nisbilik, qarşılıqlı əlaqəlilik və qeyri-müəyyənlik kimi fundamental səpkiləri onun özünə və həmkarlarına xeyli dərəcədə çətin müyəssər olduğu halda, onlar qədim hind mənəvi ənənələrinin əsasını təşkil etmişdir. Son dövrlərdə müasir fiziki konsepsiyalar ilə qədim daosizm təsəvvürləri arasında danılmaz paralellərin olduğu həqiqətlər də aşkara çıxarılmışdır [2, s.45].

**2. Müasir şəxsiyyət tipinin formalaşmasında mədəniyyətin rolu.**

Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsirində şəxsiyyətin inkişaf xüsusiyyətlərini təhlil edərkən keçmiş tarixi mərhələlərdə onların yaxınlığı və fərqli cəhətlərini göstərməklə məhdudlaşmaq olmaz. Əsas məsələ müasir dünyanın bu baxımdan yaratdığı yeni keyfiyyət dəyişikliklərini unutmamaqdır. Söhbət ondan gedir ki, XX əsr bu hər iki sivilizasiyanın ümumiliyi və yaxınlığının artmasında prinsipce yeni mərhələ yaranmışdır. Məşhur ingilis tarixçisi A.Toynbi (1889-1975) belə bir nəticəyə gəlmişdir ki, XX əsrə qədər bəşəriyyətin sanki ümumi taleyi olmamışdır. Müxtəliv sivilizasiyalar (Tibet, Çin, Misir, Kolumba qədərki Amerika sivilizasiyası və s.) çox vaxt bir-birindən tam təcrid olunmuş halda mövcud olmuşlar [30]. Təbiidir ki, onlar arasında ümumtarixi təcrübənin olmasından belə söhbət gedə bilməzdi. İndi isə informasiya texnologiyaları tətbiqi vəziyyət kökündən dəyişilmişdir, başqa sözlə müxtəlif kontinentlər arasında kütləvi kommunikasiya elə mükəmməl səviyyəyə malikdir ki, hər hansı bir yerdə baş verən istənilən hadisə barəsində dünyanın o biri qütbündə operativ və dəqiq məlumatlar almaq mümkün olur [26, s.190].

Müasir şəxsiyyət tipinin formalaşmasında mədəniyyətin böyük rolu həm onunla ifadə olunur ki, müasir dövrdə baş veren əsaslı dəyişikliklər nəticəsində insanın mənəvi aləmində müxtəlif və çox vaxt da ziddiyyətli xarakter daşıyan məqamlar özünü göstərir. Bu isə insanın öz varlığının mənasını dərk etməyə yönələn axtarışları sürətlənir. Burada sonuncuları yolu əsas etibarilə mənəvi dəyərlərin yenidən mənalandırılması və mədəniyyət ənənələrinə müraciət etməkdən keçir. Həmin müraciətdə şəxsiyyət müasir keçməkeşli dünyada öz «Mən»ini axtarmağa cəhd göstərir. Sözügedən prosesdə şəxsiyyət müasir Şərqin və Qərbin mədəni dəyərlərini bir-birilə müqayisə edir, onların üstün cəhətinə bəraət qazandırır, onlara meyl edərək, öz həyat fəaliyyətində yerinə yetirməyə çalışır. Sonuncu hal həm də onu sübut edir ki, müasir şəxsiyyət özünün düçar olduğu mənəvi böhrandan çıxış yolunu həm də mütərəqqi hesab etdiyi mədəniyyətdə, sivilizasiyada görür.

Qərbin industriallaşması, elmi, texniki və texnoloci üstünlüklərə malik olması, təkcə sosial-iqtisadi və siyasi həyata deyil, həm də şəxsiyyətin varlığının ümummənəvi durumuna, əxlaqi keyfiyyətlərinə güclü təsir göstərir. Həmin təsirin zahiri ifadəsi onun siyasiləşməsində, yəni siyasi proseslərə və hadisələrə daha yaxından cəlb olüunmasında, mədəniyyət və incəsənətdə reallığa o qədər yaxın olmayan formaların (pop, art, modern və sair) genişlənməsində tapır. Sözügedən təsirin daxili alt qatları daha güclü olub, şəxsiyyətin mənəvi alə-

mini, onun mədəniyyətini və mənəvi dəyərlər sistemini əhatə edir. Şəxsiyyət özünün dünyaya münasibətində, habelə digər insanlar ilə əlaqələrində ümuməhəmiyyətli fundamental mədəniyyət nümunələrini və dəyərlərini qoruyub saxlamağa çalışır. O, qüvvədə olan bütün metod və vasitələrdən (indi isə onların sayı həddindən artıqdır) istifadə edərək, öz mənəvi varlığını və həyatının mənasını əsaslandırmağa cəhd göstərir, beləliklə də gələcəyə inam hissi təlqin edir. Bu zaman o tez-tez Şərqin və Qərbin mənəvi dəyərlərini təkcə bugünün reallığı deyil, həm də tarixi səpkidə mənalandırır. Bununla əlaqədar olaraq son onilliklərdə elmi ədəbiyyatda Şərq və Qərb mədəniyyəti «anlayışları» geniş şəkildə elmi ədəbiyyatda istifadə olunmağa başlanmışdır. Bu isə təsadüfi hadisə olmayıb, ilk növbədə onunla izah olunur ki, bu iki böyük sivilizasiyanın mədəniyyət sahəsində və mənəvi dəyərləndirici istiqamətdə tarixi və siyasi statuslarında diqqəti çəkən və bugünkü gün baxımdan cəlbedici görünən cəhətlər yetərincədir. Həm də nəzərdə tutulmalıdır ki, bu göstəricilər üzrə onlar arasında ümumi oxşar və spesifik, fərqləndirici cəhətlər kifayət qədərdir.

Ümumilikdə götürdükdə Şərqin mədəni potensialı daha çox dinin həmçinin cəmiyyətin ənənəvi təşkilində güclü olması, cəmiyyətin ənənəvi təşkili şəxsiyyətin sosial-etik xüsusiyyətlərinin güclülüyü ilə seçilir. Qərbdə çox vaxt sonuncu amillərin təsiredici amillərə çevrilməsi şəxsiyyətdə texnofobiya adlı vəziyyəti (texniki inkişafdan qorxuya düşmək və buna görə ondan üz döndərmək cəhdi) yaradır. Texnofobiya elə bir şəraiti ifadə edir ki, burada texniki priyomlar və obyektlər insan tərəfindən onun varlığı üçün təhlükə kimi qəbul olunur. Özü də bu fikrin insanlarda aşınması kütləvi şüur səviyyəsində də geniş yayılmağa başlayır [29, s.298].

Qeyd edək ki, şəxsiyyət tərəfindən Şərq və Qərb mədəniyyətinə fəal diqqət və münasibət bəslənilməsi təkcə Azərbaycan üçün səciyyəvi əlamət deyildir. Bu meyl demək olar ki, bütün postsovet respublikalarında özünü göstərir. Bu baxımdan qonşu Rusiyada Qərbə Amerikaya rəğbət daha aydın hiss olunmaqdadır. Son dövrdə burada industrial cəmiyyətə xas olan tədbirlər (bir çox məsələlərlə bağlı dövlət məhdudiyyətlərinin aradan qaldırılması, milli əlahiddəliyin ləğvinə yönələn tədbirlər, milli mədəniyyətin dərindən öyrənilməsinə qayğı, insanın müxtəlif kommunikasiya texnologiyaları ilə dialoqunun genişləndirilməsi və s.) daha önəmlidir.

Bununla əlaqədar olaraq XX əsrin 20-ci illərində yaranmış avroasiya adlı konsepsiya diqqəti kifayət qədər cəlb etdiyindən 90-cı illərdən etibarən daha geniş yayılmağa başladı. Vaxtilə «Вопросы философии» jurnalı 1995-ci ildə «Avroasiya: lehinə və əleyhinə, dünən və bu gün» adlı geniş «dəyirmi masa» keçirmişdi. Burada dərc olunmuş materiallarda avroasiya konsepsiyasının mahiyyəti, onun yaranmasının tarixi mədəni kökləri barədə maraqlı məlumatlar ifadə olunmuşdu. Məsələn, rus tədqiqatçısı A.S.Panarin yazırdı: «Avroasiyaçılıq bütövlükdə antiqərb mövqeyidir və nə qədər Qərb postsovet məkanının slavyan və müsəlman tərəflərini bir-birinə qarşı qoymaq xətti yeridəcəkdir, bu mövqe də bir o qədər güclənəcəkdir» [27, s.234].

Adı çəkilən müəllif eyni zamanda göstərir ki, avroasiya mədəniyyətinin hər cür millidini və siyasi sərhədlərini və qarşıdurmasını ikinci plana keçirə biləcək universallığının işlənib hazırlanması və bərqərar edilməsi üçün hələ çoxlu cəhdlər göstərmək lazım gələcəkdir[27, s.234].

Avroasiya ideyasının bəzi maraqlı məqamlan da vardır. Məsələn, burada göstərilir ki, insanın mənəvi potensialı heç də həmişə iqtisadi və elmi texniki potensialı ilə üst-üstə düşmür. Mədəni potensial çox vaxt maddi zəiflikdən əlavə, onun kompensasiyası kimi özünü göstərir. Yeri gəlmişkən qeyd edək ki, maddi-iqtisadi ilə elmi-texniki tərəfin bir-birinə uyğun gəlməməsi, eləcə də birlikdə götürüldükdə onlar ilə mədəni potensial arasındakı uyğunsuzluq, müasir dövr şəxsiyyətinin həyatında təzahür edən çox ciddi problemlərdəndir. Bu tərəflər arasında özünü göstərən qeyri-mütənasiblik, onlardan birinin digəri vasitəsilə kompensasiya olunması ilə həll olunur. Məsələn, şəxsiyyət müəyyən maddi-iqtisadi və siyasi cəhətdən böhran vəziyyətinə düçar olduqda, onun mənəvi mədəniyyəti (ənənələri, dili, dini

və s. ilə birlikdə) həyat axarına rəhbərliyi bir növ öz əlinə alır. Bu həm şəxsiyyətin özgürlüyünü qoruyub saxlamaq, həm də onun düşdüyü iqtisadi və siyasi böhrandan çıxış yolu aramaq baxımından çox böyük əhəmiyyət kəsb edir. Əgər böhran şəxsiyyətin mədəniyyətinin özgürlüyünü əhatə edirsə, onda vəziyyət çox ağır olur, onun üçün əsl fəlakətə çevrilir.

Avroasiya ideyasına millətçiliyin, özü də rus millətçiliyinin növü kimi yanaşanlar da vardır. Belə ki, rus-sovet tarixçisi V.A.Şnirelman onu imperiya millətçiliyi səviyyəsinə yüksəlmiş xüsusi növlü millətçilik hesab edir və göstərir ki, bu millətçiliyin mahiyyətini ümumrusiya dövlətçiliyi, rus dili, rus pravoslavlığı və ali səviyyəli rus mədəniyyət təşkil edir. Aşağı səviyyəli lokal xarakterli qeyri-rus mədəniyyətləri isə ona tabe vəziyyətdə olmalıdır [36, s.3].

Avroasiya təliminin əsasını qoyanlardan biri olan rus filosofu N.S.Trubetskoy (1890-1938) "Avropa və Avroaziya" əsərində onun külturoloji cəhətlərinə və şəxsiyyətə təsirinə xüsusi diqqət yetirirdi. Filosofun fikrincə, mədəniyyət ayrı-ayrı fərdlər arasındakı fərqləri aradan qaldırmaq yolu ilə vahid psixiki tip yaratmağa xidmət edir. «Hər cür mədəniyyət müəyyən sosial mühitdə keçmiş və müasir nəsillərin tarixən dəyişkən kollektiv yaradıcılığı məhsuludur. Həm də nəzərdə tutulmalıdır ki, hər bir mədəni dəyər bütövlükdə müəyyən sosial birliyin və yaxud onun tərkibinə daxil olan fərdlərin maddi və mənəvi tələbatını ödəmək məqsədi güdür» [5, s.231].

Avroasiyaçılıq mövqeyindən çıxış edən müəlliflərin bir qismi açıqdan-açığa avropasentrizmi müdafiə edir və Avropa mədəniyyəti ilə Şərq mədəniyyəti arasında fərqləri daha da şişirtməyə cəhd göstərirlər. Bu mənada A.Ignatovun aşağıdakı fikri səciyyəvidir. «Bizim fikrimizcə, Qərbi Avropa mədəniyyətinin dəyərləri heç bir vəchlə Asiya mədəniyyətinin dəyərləri ilə eyniləşdirilə bilməz, çünki Şərqin siyasi ənənəsi despotizm, insanın dövlətə münasibətdə hüquqsuzluğu və elə bir ümumi ustanovka ilə səciyyələnir ki, o ayrıca götürülmüş şəxsiyyətin həyatının heç bir xüsusi dəyər kəsb etmədiyini irəli sürür. Əksinə, Qərbi Avropa, siyasi azadlığın və insan ləyaqətinin qorunmasının beşiyi olmuşdur» [19, s.54].

Həmin məqama diqqət yetirən məşhur amerikan iqtisadçısı və politoloqu C.Qelbreyt (1908-2006) göstərirdi ki, industrial sistemdə şəxsiyyətin müəyyən bir problemi yaranır ki, bu istehsalda və istehlak sferasında fərdiyyətçiliyin məhv edilməsini tələb edir. Sonra o, sözünə davam edərək həyəcanla bildirir ki, biz hamımız insan şəxsiyyətinin suverenliyi və toxunulmazlığı ideyasına tərəfdar çıxırıq, lakin insan şəxsiyyətini necə xilas etmək olar və əgər ümumilikdə onu xilas etmək mümkündürsə?» [11, s.379].

Deyilənlər sübut edir ki, industrial cəmiyyətin şəxsiyyətə təsirini təkcə birtərəfli qəbul etmək, yəni burada şəxsiyyətin azadlığı və bərabərliyi ideyasının inkişaf etdiyini göstərmək kifayət deyildir. Həm də industrial cəmiyyətin bütövlükdə Avropa sivilizasiyasının şəxsiyətə, onun individuallığına pozucu ve dağıdıcı təsiri də mütləq qeyd olunmalıdır. Təsadüfi deyildir ki, zəmanəmizin bir çox mütəfəkkirləri dəyirmi masa arxasında aparılan diskurslarda dialoq səviyyəsində bu barədə tez-tez həyəcan təbili çalmaqda davam edirlər?»[16, s.175].

Hal-hazırda da Şərqin və Qərbin mədəni ənənələrinin özünəməxsusluqları və onları birləşdirməyin qeyri-mümkünlüyü haqqında geniş diskusiyalar, habelə indiki vahid dünya birliyi sistemi daxilində onların qarşılıqlı anlaşması və əməkdaşlığını təmin etməyin müqəddəm şərtlərinin yaradılması ilə bağlı problemlər ətrafında geniş müzakirələr davam etməkdədir. Diskussiyaların digər bir predmetini Şərq və Qərb sivilizasiyalarının dialoqunda dinlərin yeri, xüsusilə də müsəlman dininin mövqeyi ilə bağlı məsələlər təşkil etmişdir. Diskussiyaların digər bir predmetini Şərq və Qərb sivilizasiyalarının dialoqunda dinlərin yeri, xüsusilə də müsəlman dininin mövqeyi ilə bağlı məsələlər təşkil etmişdir?[17, s.175].

Dəyirmi masa və oxuların dərc olunmuş materiallarında sivilizasiya anlayışının müxtəliv anlamları ifadə olunurdu. Bununla yanaşı onun məzmununda siyasi aspektin və siyasi mədəniyyətin üstün yer tutduğunu göstərənlər də və buradan çıxış edərək Qərb sivilizasiyasında (o cümlədən Rusiyanın nümunəsində) dövlətçiliyin icma psixologiyasının və onun şərtləndirdiyi kollektivizmin prioritet yer tut-

duğunu qeyd edən baxışlar da özünü gösterdi [17, s.175]. Bir sıra müəlliflər (A.Xanter, D.Sekston və başqaları) Çin sivilizasiyasının unikallığını və onun Qərbdə analoqunun olmadığını bildirirdilər. Onların fikrincə, Çin sivilizasiyasının mənşəyi və funksiyaları bu cəmiyyətdə fərdin və fərdlərarası münasibətlərin total miqyasda sosiallaşması ilə müəyyən olunur. Bu sosiallaşma varlığın (səmanın, kosmolocı varlığın) və sosial həyatın (hakimiyyətin, dövlətin) əzəli və qeyd-şərtsiz paralelliyi ilə idarə olunur.

Yuxarıda göstərilən bu tədbirlərlə yanaşı Şərb ilə Qərb arasında dialoqun həyata keçirilməsinin mümkünsüzlüyünü göstərən çağırışlar da xeyli yer tuturdu. Bu mövqedən çıxış edənlər (P.Kipling, T.Robinsion və başqalan) sübut etməyə çalışırdılar ki, Şərq və Qərb mənəvi mədəniyyətləri antonimlər formasında çıxış edir. Birinciyə demokratiya, azadlıq, rasionalizm, individualizm, sekulyarlıq, liberallıq kimi keyfiyyətlər məxsus olduğu halda, ikinciyə bunları inkar edən cəhətlərə (totalitarizm, köləlik, irrasionalizm, icmaliliq, sakrallıq, konservatizm və s.) malikdir [16, s. 177].

Əlbəttə, mədəni inkişaf baxımından Şərq regionunun bəşəriyyətə verdiyi töhfələr danılmazdır [25, s.9]. Bu münasibətlə görkəmli avstriya filosofu V.Frankl (1905-1997 ) öz həyatı və yaradıcılığına dair söylədiyi aşağıdakı epizod səciyyəvidir. «İnsan məna axtarışlarında» əsərində o yazır ki, mən Birləşmiş Ştatlara mühazirə oxumağa gedəndə yerli əhali deyirdi ki, onlara yeni fikirlər söyləyirəm, ən azı psixionalizdən fərqlənən fikirlər təqdim edirəm. Sonralar Asiyada (Hindistanda və Yaponiyada) isə mən bunun tam əksinin şahidi oldum. Oradakı insanlar mənə deyirdilər ki, mən onların bildiyi köhnə həqiqətləri təkrar edirəm, çünki o həqiqətlər artıq qədim Vedalarda, Tsenin təlimində və Lao-Tsi-zinin əsərlərində ifadə olunmuşdur [32, s. 19]. Məhz bu səbəbdən V.Frankl öz elmi yaradıcılığında həm Şərq və həm də Qərb fəlsəfi fikrinin bir çox hümanist ideyalanı əxz etməklə dövrün tələbatını ifadə edən tədqiqatçı statusu səviyyəsinə yüksəlmişdir.

Şərq və Qərb mədəniyyətlərinin mütərəqqi formalarını bir-birilə əlaqələndirməyin zəruriliyi ideyası K.Yaspers (1883-1969) tərəfindən də əsaslandınlmışdır. O göstərirdi ki, «Biz daha yüksək səviyyədə insanın varlığı və yaradıcılığı aləminin bütövlüyü səviyyəsində vəhdət axtarırıq. Buna cəhd göstərərkən biz bütün insanlara aid olan, onlann hamısı üçün mühüm olan tərəfləri üzə çıxarmaqla əvvəlki dövrlərin vəhdətini əldə edirik[38, s.296].

Yaspersə görə Şərqlə Qərbin qarşılıqlı əlaqə mexanizmi necədir? O, hesab edirdi ki, Şərq Qərbi tamamlamalı, Qərbin yaxın keçmişdə insan təbiətinin təkmilləşdirilməsi məsələlərində öz "üstünlük" ideyası ilə həddən artıq aradan qalxmış "natamamlığını" və "yetərsizliyini" kompensasiya etməlidir. Onun fikrincə, "Yaratdıqlarımıza, edə bildiklərimizə, nələrə çevrildiyimizə görə müəyyən qiymət ödədik. Biz heç də insan təbiətini təkmilləşdirmək yolunda deyilik. Asiya bizə zəruri tamamlayıcı kimi xidmət edir" [39, s.90].

Şərqin və Qərbin daxili həyat və təfəkkür formalarını dərindən araşdırdıqda məlum olur ki, Şərq təfəkkürünün və həyat formalanının müəyyən elementləri Qərbdə yayılmışdır. Eynilə də Qərbin sözügedən sahələrdəki elementləri Şərqdə özünə yer tapmışdır [6, s.83-84]. Beləliklə, Şərq və Qərb mədəniyyətlərinin münasibətləri haqqında son dərəcə müxtəlif fikirlər söylənilməkdədir. Tədqiqatçıların bir qrupu göstərirlər ki, Şərq Qərb ilə eynidir, onlar arasında o qədər də dərin fərqlər yoxdur. Digərləri ayrı-ayrılıqda onlaran hər birinə məxsus olan spesifikliyi vurğulasa da, aralarında ümumi və oxşar cəhətlərin olduğunu qəbul edirlər. Nəhayət elə alimlər də vardır ki, onların fikrincə Şərq ilə Qərb bir-birindən o qədər fərqlənir ki, onlar arasında hər hansı ciddi təmas əlaqələri ola bilməz. Sonuncu mövqe daha çox amerikan politoloqu A.Hantington (1927-2008) və ingilis yazıçısı P.Kipling (1865-1936) tərəfindən müdafiə olunmuşdur.. Məsələn, P.Kipling yazırdı: «Qərb Qərbdir, Şərq isə Şərqdir. Onlar heç vaxt bir ola bilməzlər» [6, s.84]. Əlbəttə, Şərq ilə Qərbin mədəniyyətində, insanların həyat və təfəkkür tərzində müəyyən özünəməxsusluqlar da vardır ki, onları nəzərə almaq vacibdir. Məsələn, Şərqdə belə bir fikir əsas yer tutur ki, mövcud olan hər şey yarandığı gündən mükəmməl xarakter daşıyır, buna görə də bütün cəhdlər həmin mükəmməl-

liyi qoruyub saxlamağa yönəlməlidir. Odur ki, burada insanın yaradıcılığı demək olar ki, qəbul olunmur və qadağan edilirdi. Şərq ictimai fikrində təbiətə münasibətdə belə bir mövqe hakim idi ki, təbiət də mükəmməl varlıq kimi yaranıb, buna görə də onu olduğu kimi qoruyub saxlamaq, ona müdaxilə etməmək, onu korlamamaq lazımdır. Qərb ictimai şüurunda isə uzun müddət təbiətdən mərhəmət gözləməmək, onu özümüzə tabe etmək «şüarı» hakim yer tutmuşdur. Sonra Qərb təfəkkürünün və dünyaya münasibətinin mərkəzi prinsipini fəaliyyət, iş görmək, xarici aktivlik təşkil edir. Şərqdə isə təfəkkürün və dünyaya münasibətin mərkəzi prinsipini müşahidəçilik, fikirləşmək, fikrin daxili aləmə təmərküzləşməsi təşkil edir.

İlk dəfə yeni əsrdə formalaşan sivilizasiyanın "Şərq" və "Qərbə" bölünməsi cəmiyyətin ideoloji mədəniyyətində insanın bir fərd kimi dərk edilməsinin olub-olmamasını əsas fərqləndirici cəhətlərdən biri kimi vurğulayır. İnsan şəxsiyyəti fenomenində Qərb insanı tərəfindən onun sivilizasiya kimliyinin identifikasiyası prosesi baş verir. Qərb mədəniyyətində fərd muxtar, fərdiləşən, ətraf aləm üzərində əsas üstünlüyü sayəsində hökmranlıq və gücə malik, özündə mənəvi təmələ malik olan və mahiyyətcə özünə qapanan bir varlıq kimi görünür. Qərb mədəniyyətində şəxsiyyət fenomeni mahiyyət etibarilə onun sivilizasiya inkişafı yolunun seçilməsini müəyyən etmişdir. Qərb mədəniyyəti üçün şəxsiyyət müəyyən şəkildə bütün əsas ideoloji məsələləri həll edən ideoloji konstruksiyaya çevrilir, ona görə də bu mədəniyyətə mənsub olan hər bir şəxs şəxsiyyət olmalıdır, əks halda o, ona yadlaşır və özünü başqa mədəni ənənə çərçivəsində yerləşdirməyə məcbur olur [24, с.77].

Müasir şəraitdə bütövlükdə bəşəriyyətin və eləcə də hər bir insan şəxsiyyətinin əsas mənafeləri Şərq ilə Qərb arasında dialoqu genişləndirməyi zəruri edir. Bu tələbat indi həmişəkindən daha güclüdür. Hazırda hansı regionda yaşamasından asılı olmayaraq, bütün insanlar sanki bir gəmidə üzürlər. Buna görə də həm Şərqin, həm də Qərbin tarixi və milli-mədəni ənənələrində onları ayıran və fərqləndirən cəhətlərdən daha çox, bu sivilizasiya növlərinə xas olan ümumi və oxşar cəhətləri axtarıb tapmaq və geniş təbliğ etmək (onlar isə kifayət qədərdir), qarşılıqlı anlaşmaya və razılığa aparan yollarla getmək vacibdir.

Bu mənada XX əsrin böyük alman filosofu və ictimai xadimi A.Şveytserin (1875-1965) aşağıdakı sözləri prinsip kimi qəbul oluna bilər. «Təsəvvür edək ki, Avropa və hind fəlsəfəsi arasında disput keçirilir: onlardan hər birinin özünün müstəsna dərəcədə doğru olduğunu iddia etmək hüququ vardır. Çünki hər ikisi hədsiz dərəcədə qiymətli ideyalar xəzinəsinin məbədidir. Odur ki, həm Qərb və Şərq üçün, onlar arasında keçmişdə olmuş bütün tarixi fərqlərin fövqünə yüksələrək, bəşəriyyət üçün vahid fikir tərzi işləyib hazırlamaq zəruridir» [35, s.56].

Alman filosofu Osvald Şpenqler (1880-1936) özünün "Avropanın tənəzzülü" əsərində Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı əlaqəsi probleminin şərhini verərkən qeyd edirdi ki, mədəniyyətlər tamamilə müstəqil orqanizmlərdir, "necə ki, hər növ bitkinin öz çiçəkləri və meyvələri, öz böyümə və çürümə növü vardır" [37, s. 151].

A.Toynbinin fikrincə isə bütün tarix canlı və ölü sivilizasiyalardan ibarətdir. Qarşılıqlı fəaliyyət mədəniyyətin yad (fərqli, başqa) və doğma ilə müqayisədə özünüdərketmə və özünü yeniləmə mexanizmini əhatə edir. Eyni zamanda, mədəniyyətlər arasında qarşılıqlı əlaqənin dağıdıcı formaları (assimilyasiya, səthi şərh) mövcuddur. Mədəniyyətlər arasında qarşılıqlı əlaqə prosesində həlledici rolu mədəni sərhədləri keçən və öz və xarici (müxtəlif, başqa) arasında "körpülər quran" vasitəçilər (sərhəd fərdləri) oynayır [7, s.28].

Beləliklə, mənəvi mədəniyyət və onun şəxsiyyətə təsiri baxımından Şərq-Qərb münasibətləri problemi olduqca mürəkkəb olub, özündə bir çox istiqamətləri və tərəfləri əhatə edir. Fikirlərimizin yekunu olaraq, mövzu ilə bağlı məsələləri ümumiləşdirərkən ingilis filosofu və sosioloqu A. Toynbinin təbirincə desək, şəxsiyyətin individual keyfiyyətlərinin formalaşmasında mühüm rol oynayan mənəvi dəyərlərin və mədəni sərvətlərin spesifikliyi (mentallıqı) ilə bağlı cəhətləri, digər tərəfdən isə onların universal xarakter daşıyan keyfiyyətləri ayrılmaz vəhdətdə götürülməlidir [31, s.123].

XX əsrin tarixi, dünya ölkələri arasında münasibətlərin inkişafı, onlann əməkdaşlığı və birliyinin artması, eyni zamanda dövrün qlobal problemlərinin və ümumi taleyüklü məsələlərin həllində tarixi məsuliyyətin dərk olunması ilə əlamətdardır. İngilis filosofu və sosioloqu A.Toynbinin (1889-1975) dediyi kimi bəşəriyyətin ümumi taleyinin formalaşması məhz bu dövrdən başlanır [31, s.123].

**Mövzu ilə bağlı aparılan təhlillər aşağıdakı nəzəri müddəalarda və nəticələrdə öz əksini tapır:**

1. Demokratikləşmədə. demokratikləşmə, fikir plüralizminə, sərbəst mənəvi yaradıcılığa geniş meydan verilməsi, müasir şəxsiyyətin dialoqa və kommunikativliyə olan meyllərin keyfiyyət baxımından bu prosesləri daha da sürətləndirir. Çünki şəxsiyyət ilə mədəniyyətin qarşılıqlı təsirinin müasir səviyyəsi üçün səciyyəvi olan dinamiklik mürəkkəb mexanizmə malikdir və bu proseslər müxtəlif formalarda həyata keçirilir.

2. Tarixi dinamikada: mədəni çiçəklənmə və tənəzzül dövrləri arasındakı uyğunsuzluq. Məlumdur ki, sivilizasiya ilk olaraq Şərqin bir hissəsi hesab edilən ərazilərdə yarandı. Avropa (gələcək Qərb), məsələn, Misir və Mesopotamiyadan əsrlər boyu geri qalmışdır. Şərq tərəqqi edərək irəliləmiş və mədəniyyətin bir çox sahələrində onun Qərb üzərində hökmranlığı son orta əsrlərə qədər davam etdi. Sonra Qərb hökmranlıq etməyə başlamışdır. Bu zaman Şərq durğunluq yaşamış, onun mədəni formaları qorunub saxlanılsa da, praktiki olaraq əsrlər boyu dəyişməz qalmışdır. XIX əsrin ikinci yarısından Yaponiya, Türkiyə, Hindistan və digər Şərq ölkələrinin modernləşməsi və "avropalaşması" prosesi başlamış, onlarda kapitalizm sürətlə inkişaf etmiş, Qərbə yaxınlaşma güclənmişdir.

3. Ənənəvi dəyərlərin yeri və rolunda. Qərb innovasiyaların üstünlüyü, mədəni formaları, dünyagörüşü və dəyərləri, həyat tərzini dəyişmək istəyi ilə xarakterizə olunur. Şərqdə ənənə üstünlük təşkil edir, sabit dəyərlər sistemi mövcud olsa da, onların arasında əsas rolu din, ailə, yaşlı nəsilə inam, qohumluq münasibətləri, qarşılıqlı asılılıq və həmrəylikdən ibarət şəxsiyyətlərarası münasibətlər tutur.

4. Elmin xarakteri, rolu və taleyində. Qərbdə elm üç tarixi formada inkişaf etmişdir: qədim, orta əsrlər və "yeni Avropa" (17-20-ci əsrlər). Şərqdə elm qədim zamanlardan bəri bir tərəfdən iqtisadiyyat və texnologiya ilə, digər tərəfdən isə inzibati fəaliyyətlə bağlı yalnız praktiki məsələlərin həlli üçün biliklərin tətbiqi sahəsi olaraq qalmışdır. Şərq elmi əsasən dini-əxlaqi xarakter daşımış, insanın duyğu təcrübəsi ilə bağlı olmuş və təcrübəyə ehtiyac hiss etməmişdir. Onun əsas və mühüm problemi humanitar sahədə özünü göstərmiş, dini ideologiya ilə sıx bağlı olmuşdur.

5. Din sahəsində. Şərq bir neçə dinlə, Qərb bir dinlə-xristianlıqla əlaqələndirilir. Ümumiyyətlə, Şərq mədəniyyəti adətən üç sahəyə və ya ənənəyə bölünür: Ərəb-İslam, Hind-Buddist və Çin-Konfutsi. Şərqdə yaşayan hər bir insanın özünəməxsus dini etiqadı vardır. Şərqdə din öz tarixi boyu cəmiyyətin və fərdin mənəvi dünyasını müəyyən etməklə yanaşı, iqtisadiyyata, siyasətə, ictimai münasibətlərə, insanların həyat tərzinə öz təsirini göstərmişdir. O, praktiki olaraq hüquq və əxlaq kimi sahələrlə, bəzən isə bütövlükdə mədəniyyətlə (məsələn, Hindistanda, İranda, Əfqanıstanda) üst-üstə düşmüşdür. Qərbdə xristianlığın rolu orta əsrlərdən sonundan başlayaraq müasir keçid dövrünədək, mədəniyyətin dünyəvi elementlərinin üstünlük təşkil etməyə başlaması ilə kəskin şəkildə dəyişmişdir.

6. Şəxsiyyət müstəvisində və amilində. Şəxsiyyətin yeri və rolu, onun dünya və təbiətlə münasibəti, eləcə də dəyər yönümlərində. Qərb insanı öz xarakterində günəşi kainatın mərkəzinə yerləşdirən, ona iradə və seçim azadlığı bəxş edən antroposentrizm ilə xarakterizə olunur. İnsan şüuru ətrafdakı təbii və sosial aləmi real təzahürlərlə dərk edə və onun zənginliklərinə yiyələnərək, öz xeyrinə istifadə edir. Amma dünya qeyri-kamildir, ona görə də insan yaratdığı layihələr və ideal modellər əsasında onu öz ideyalarına uyğun yenidən formalaşdırmağa çalışır. Şərqə xas olan başqa bir prinsip kainatın mərkəzində ali iradənin, fövqəltəbii prinsipin dayanmasına əsaslanır. İnsan onunla (və bütün dünya ilə) birləşməklə bu gücü dərk etməlidir. Məsələn, bir hindli üçün əsas məsələ dünyanı bir mahiyyət kimi tanı-

maq, hər şeydə özünü tanımaq, yoqa ilə, dünya ilə birləşməkdir. Şərq insanı təbiətlə həmahəngdir, özünü ondan ayırmır. Qərb insanı diqqətini şəxsi uğura, maddi rifaha yönəldir və fərdiliyini maksimum dərəcədə ifadə etməyə çalışır. O, yüksək rəqabət mühitində fəaliyyət göstərməyə öyrəşib. Şərq insanı həmişə özünü bütünün bir hissəsi kimi hiss edir, onun qarşısında əbədi qurulmuş nizam hökm sürür, onun qarşısında öz "mən"ini dərk edən şəxsiyyət fəaliyyətini, baxışlarını və həyat tərzini ona tabe edir.

Beləliklə, araşdırılan mövzunun təhlili ilə bağlı qeyd etmək lazımdır ki, müasir şəxsiyyət tipinin formalaşmasına milli kontekstdə yanaşdıqda həmin prosesin aşağıdakı iki güclü meylin təsiri ilə baş verdiyini göstərmək lazımdır. Birincisi ümumilikdə müasir ictimai inkişaf üçün səciyyəvi olan insanların ictimai və milli həyatının ardınca onların şəxsi həyatının da standartlaşması və universallaşması, sözün müəyyən mənasında unifikasiyaya uğraması, həyat tərzində universal xüsusiyyətlərin artdığını göstərən cəhətlərin çoxalması, milli dəyərlərin getdikcə daha çox ümumbəşəri məzmun kəsb etməsidir. Bu meylə sürətləndirici təsir edən amillər sırasında birinci yeri müasir dövrdə qlobal problemlərin miqyasının və rolunun artması şəraitində, onların son dərəcə təhlükəliliyinin dərki əsasında millətlərin, dövlətlərin və xalqların əməkdaşlılığının möhkəmləndirilməsi zərurəti tutur. İkinci meylə isə milli-mədəni diferensiasiyanın rolunun atması, güclənməkdə olan milli özgürlüyün dövlət tərəfindən qorunması, milli mədəniyyətlərin rəngarəngliyinin çoxalması şəraitində müxtəllif dillərə və mədəniyyətlərə malik olan insanların, şəxsiyyətlərarası dialoqunun genişlənməsi, milli dəyərlrin məzmunun zənginləşməsi və onlarda ümumsivilizasiyon xarakterli tərəflərin çoxalması ilə xarakterizə oluna bilər. İlk nəzərdə belə görünə bilər ki, müasir şəxsiyyəti formalaşdıran bu iki meyl bir-birinə ziddir. Lakin əslində onlar arasındakı ziddiyyət zahiri xarakter daşıyır, öz mahiyyətinə görə onlar sözün müəyyən mənasında bir-birini tamamlayırlar.

## İstifadə edilmiş ədəbiyyat


1. Allahverdiyev Q.V. Azadlıq (sosial-fəlsəfi təhlil). Bakı, Adiloğlu, 2009, 320 s.
2.. Hacıyev Z. C. Fəlsəfə, Bakı, Adiloğlu, 2000, 640 s.
3. Həbibbəyli.Ə.İ. Sivilizasiyaların kəsişməsində türk dünyası. Bakı, Elm və təhsil. 2011, 256 s.
4. Məmmədov.Ə. Mustafayev.A. Təbii-elmi idrak və insan dünyası. Bakı, Təknur, 2011, 464 s.
5. Rzayev M.H. Şəxsiyyətin fəlsəfəsi. Bakı, ADPU, 2004, 389 s.
6. Арсеньев А.С. Философские основания понимания личности. М, 2001, 592с.
7. Васильев Л.С. История востока в 2-х т. Т.1. М, Наука, 1993, 578с.
8. Восток-Запад. Исследования. Переводы. Публикации. М, Эксмо, 2008, 314 с.
9. Выжлецова Н. В. Концепции взаимодействия культур Запада и Востока // Философия и гуманитарные науки в информационном обществе. 2016, № 1. с.56–75. URL: http://fikio.ru/?p=2046.
10. Гаджиев. К.С. Введение в геополитику. Москва, Логос, 2011 ,479 с.
11. Гельбрейт Дж. Новое индустриальное общество. М, Политиздат, 2008, 1200 с.
12. Григорьев С.И. Основы построения социологической теории жизненных сил человека / Социология на пороге XXI века. Новые направления исследований. М.: 1998 с.18-52.
13. Григорьева Т.П. Дао и Логос (встреча культур). Москва, Наука, 1992. 422 с.
14. Гумилев Л.Н. Ритмы Евразии. М.: 1993, 476с.
15. Гордиенко.И. В. Личность в контексте западной культуры. Диссертация кандидат философских наук. Ростов-на-Дону, 1998, 137 с.
16. Диалог цивилизаций: Восток. Запад. Материалы Международного симпозиума // Вопросы философии, 1998, № 2, с.173-174.

17. Диалог цивилизаций: Восток – Запад. Сборник материалов конференции, Москва, Российский Университет Дружбы Народов, 2018, 482 с.
18. Замов. Э. А. Общественная мысль стран Востока. учеб. пособие М-во образования и науки Рос. Федерации, Урал. федер. ун-т. Екатеринбург,Изд-во Урал. Ун-та, 2017, 150 с.
19. Игнатьев А. «Евразийство» и поиск новой русской культурной идентичности // Вопросы философии 1995, № 6.
20. Инговатова А. Г. Запад - Восток: проблема диалога культур: Опыт социально-философского исследования. Dиссертация кандидата философских наук. Барнаул, 2002, 182 с.
21. Канке А.Е. Философия. В 6 т. Т.3, М, 1999, 512с.
22. Малахова Н. Н. Трансформация представлений о Востоке в Западной культуре. Автореферат диссерт. на соискание ученой степени канд. философ. наук, Ростов-на-Дону – 2005, 32с.
23. Маховиков А.Е. О личности как цивилизационной идентичности западной мировоззренческой культуры. Международный научный журнал «Символ науки», № 3, 2017, с.77-78.
24. Нысанбаев.А. Глобализация и диалог культур. Евразийское сообщество. 2002. №1.
25. Омарова Л . Б., Музашвили Д. З. Диалектичность понятий «Восток» «Запад» в условиях глобализационных тенденций современности. Гуманитарные науки. Вестник Финансового университета. № 10(3), Москва, 2020. с.25-28.
26. Основы философии (под ред. Попова). М, 1998, 318с.
27. Панарин Л.С. Политология. М, 1998, 524с.
28.Почта Ю.М. Возникновение ислама и мусульманского общества (философско-методологический анализ). М, 1993, 232с.
29.Современная западная философия. Словарь. М.: Политиздат, 1991, 411с.
30. Спиркин.А.Г. Философия. «Гардарики», М, «Гардарики», 2000, 815с.
31. Тойнби А. Дж. Постижение истории: Пер. с англ. Сост. Огурцов А. П, М, Прогресс, 1991, 736 с.
32. Франкл В. Человек в поисках смысла. М.: Республика, 1990, 454с.
33. Фрейд З. Человек по имени Моисей и монотеистическая религия. М, 1993, 221с.
34. Человек и духовная культура Востока. Альманах. Вып. 2. М.: Издательство «ОГНИ», 2003, 174 с.
35. Швейцер А. Благоговение перед жизнью. М.: Прогресс, 1992, 576 с.
36. Шнирельман В.А. Евразийская идея и теория культуры // Этнографическое обозрение, 1996, № 4.
37. Шпенглер О. Закат Европы. Очерки морфологии мировой истории. Ч. 1. Гештальт и действительность. М, Мысль, 1998, 663 с.
38. Ясперс К. Смысл и назначение истории. М, Республика, 1994. 527 с.

**Rəyçi:** **f.ü.f.d. Ağasəlim Həsənov**

**Göndərilib: 01.04.2025** **Qəbul edilib: 15.04.2025**